

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 6 (23.648)

12 yanvar 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfər edib.

Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilib. Görüşdə çıxış edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qeyd edib ki, üçtərəfli razılaşmalar ardıcıl olaraq reallaşır. Bu, çoxdan davam edən münaqişənin ədalətli əsasda, həm Azərbaycan, həm də erməni xalqlarının mənafelərinə uyğun olaraq uzunmüddətli və tamformatlı nizamlanması üçün zəruri ilkin şərait yaradacaq. Rusiya Federasiyasının Prezidenti ümidvar olduğunu bildirib ki, növbəti danışıqlar işgüzar şəraitdə keçəcək, regionda möhkəm sülhün, təhlükəsizliyin və davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bəyanat imzalayıblar. Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri mətbuata bəyanatla çıxış ediblər.

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ikitərəfli görüşü olub.

## Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması həyata keçirilən innovasiya siyasətinin məntiqi davamı və uğurlu yekunudur

*Azərbaycan təhsilinin və elminin qarşısında duran əsas vəzifələrdən biri cəmiyyətin bugünkü inkişaf səviyyəsinə adekvat olan yüksəkixtisaslı kadrların hazırlanmasından ibarətdir. Həmin kadrların müasir təfəkkürlü və kreativ düşüncəli, səriştəyə çevrilə bilən bilik və bacarıqlara malik olması, praktik vərdişlərlə müşayiət edilən nəzəri biliklər qazanması olduqca vacibdir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası xammala əsaslanan iqtisadiyyatdan yüksək texnologiyalara, innovasiyalara əsaslanan iqtisadiyyata keçidi nəzərdə tutur. Enerji resurslarının ixracından əldə edilən vəsaitlər qeyri-neft sektorunun formalaşmasına, insan kapitalının inkişafına yönəlir. Ölkəmizdə reallaşan "qara qızılı insan kapitalına çevirmək" siyasəti dünyanın müasir inkişaf meyillərinə uyğundur, çünki bu gün hər hansı ölkənin zənginliyi onun insanlarının təhsil səviyyəsi ilə ölçülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi:* ***"İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olması tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik".***

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 2019-cu il 10 yanvar tarixli Sərəncamı məhz bu strateji hədəflər üçün ciddi dövlət sənədi kimi yüksək əhəmiyyətə malikdir.



Dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilmişdir. Davamlı sosial-iqtisadi inkişafın əsasında olan təhsilin və elmi-texniki tərəqqinin rolunu düzgün qiymətləndirərək regionda elm siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyevin kursunu uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov son illər muxtar respublikada elmin inkişafı, elmi-texniki potensialın modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə elm və təhsil işçilərinin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir. Hazırda elm və təhsilin əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə, müasir texnologiya və innovasiyaların tətbiq edilməsi yolu ilə inkişaf etdirilməsi ən prioritet məsələdir. Bu gün Naxçıvanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır – iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm işlər görülür. Bu sahədə həyata keçirilən məqsədyönlü islahatların nəticəsidir ki, Naxçıvan Dövlət Universiteti özünün maddi-texniki və təşkilati strukturuna görə ən qabaqcıl ali təhsil müəssisəsinə çevrilərək bu gün elm-təhsil-innovasiya sahəsində beynəlxalq təcrübəni tətbiq imkanı qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında" 2020-ci il 14 dekabr tarixli Sərəncamı bu baxımdan ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin olunması, innovativ layihələrin dəstəklənməsi və keyfiyyətli kadr hazırlığına son dərəcə böyük təsir imkanları yaradacaqdır.

Biliyə əsaslanan iqtisadi inkişafın əsas dayaqlarından biri də texnologiyaların işlənilməsinə və tətbiqinə istiqamətlənən müasir innovasiya strukturlarının yaradılmasıdır. İnnovasiya prosesi, zaman etibarilə, elmi bilik və ideyaların, kəşf və ixtiraların məhsula, başqa sözlə, innovasiyaya çevrilməsinin bütün dövrünü əhatə edən prosesdir. Bu istiqamətdəki fəaliyyətin tənzimlənməsi və idarə olunmasında həmin ölkələrdəki texnoparkların üzərinə mühüm vəzifələr düşür. Dünya texnoparklarının 42 faizi ABŞ-ın payına düşür. Amerika texnoparkları, əsasən, universitet bazaları əsasında yaradılmışdır. Digər texnoparkların 34 faizi Avropa ölkələrinə, 11 faizi Çinə, 13 faizi isə digər ölkələrə məxsusdur.

### Texnoparklar beynəlxalq təcrübədə

Texnoparklar tədqiqatlar əsasında fəaliyyət göstərən elmtutumlu istehsalat mərkəzidir. Bu da onu göstərir ki, texnoparkların formalaşması universitetlərin "Tədqiqat Universiteti" statusu alması ilə eyni zamanda baş verən prosesdir. Tədqiqat universiteti ABŞ mərkəzli universitet formasıdır. İlk tədqiqat universiteti isə 1876-cı ildə qurulan universitetdir. Elm və texnologiyanın inteqrasiyasını hədəfləyən texnoparklar əvvəl ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya kimi elm və texnologiya sahəsində öndə olan ölkələrdə fəaliyyətə başlamışdır. Bu gün dünyada 1000-dən artıq texnopark mövcuddur. Dünyada texnoparkların fəaliyyəti 1951-ci ildə Silikon Vadi-si-Stanford araşdırma parkı ilə başlamışdır. "Silikon Vadi" Kaliforniya əyalətində 105 min hektarlıq bir ərazidə fəaliyyətə başlayan, ətraf bələdiyyələrə ildə 1.7 milyard dollar vergiödəyən 8500 firmada 100 min işçinin çalışdığı gündəlik həyatımıza sirayət edən bir çox yeniliklərin icad edildiyi texnoparkdır. Silikon vadisində ABŞ-ın ən məşhur universitetləri fəaliyyət göstərir və 100 minə yaxın tələbə bu texnoparkda müxtəlif sahələr üzrə çalışır. Silikon vadisi Universitetin tədris mühitinə bir çox imkanlar yaratmaqla yanaşı, magistratura və doktorantura təhsili üçün də ideal məkan sayılır. Şərqi Texas universitetinin texnoparklarında kənd təsərrüfatı sahəsində tədqiqatlar ABŞ iqtisadiyyatına 1.2 milyard ABŞ dolları miqdarında gəlir gətirmişdir. Bundan başqa, İngiltərədə yerləşən 80-ə yaxın texnoparkın ən böyük və məşhur olanları Kembric Elm Parkı, Oksford, Heriot-Vatt və Mersoside Elm parklarıdır. Fransada 25 texnopark vardır. Avropa Tədqiqat Universitetləri Liqası (LERU) hesabatına görə, 2014-cü ildə universitet tədqiqatlarına verilən hər 1 avroluq investisiya yerli iqtisadiyyata 6 avro qazandırmaqdadır. Yaponiya öz texnoparklarını texnopolis adı altında qurur. Ucuz industriya məhsulları ilə dünya bazarındakı rəqabət gücünü artıran və xaricdən böyük miqdarda xarici investorları cəlb edən Çin, əsasən, ölkədə 60-dan artıq sayda fəaliyyət göstərən texnoparkların imkanlarından faydalanmaqdadır. İsrailin Ben Gurion Universitetinin nəzdində fəaliyyət göstərən Texnologiyalar Parkı tibb üzrə ixtisaslaşaraq ölkə iqtisadiyyatına mühüm təsirləri ilə tanınır.

### Texnoparkların ixtisaslaşması və inkişaf modeli

Beynəlxalq təcrübədə texnoparkların fəaliyyəti üçün vacib olan şərtlərdən biri onun yerləşdiyi ərazidir. Həmin ərazi üçün əsas şərtlər bunlardır: 1) texnoparklar şəhərə yaxın yerdə olmalı; 2) əhalinin yaşayışı üçün əlverişli şəraitli regionda olmalı; 3) elmi parklar elmi-tədqiqat və təhsil müəssisəsinin bazası olan regionda və yüksəkixtisaslı elmi-tədqiqat işi ilə məşğul olan kadrlardan ibarət olmalı; 4) elmi parklar elmi-tədqiqat işləri aparan və yeni texnologiya işləmələri hazırlamağa qadir olan elmi-tədqiqat və universitetlərə yaxın olan yerdə yerləşməlidir.

Texnoparkların fəaliyyəti üçün əlamətdar olan xüsusiyyətlərdən biri də bu bilik şəhərlərinin ixtisaslaşmasıdır. İnnovasiya parklarının ümumi koordinasiyasını həyata keçirən Beynəlxalq Elmi Parklar Assosiasiyası texnoparkların ixtisaslaşmasını aşağıdakı sahələr üzrə qruplaşdırır: İKT, informasiya vasitələri, multimedia və telekommunikasiya sahəsində, biotexnologiya, elektronika və mikroelektronika, enerji, ekoloji texnologiya, tibb elmi və texnologiya, sağlamlıq, proqram təminatı, internet texnologiyası, internet biznes, yeni texnologiya, nanotexnologiya, konsaltinq xidməti, kompüter qurğusu, kimya texnologiyası, kənd təsərrüfatı, informatika, avtomatlaşdırma, robotexnika, optika, lazer texnologiya, təhsil, insan resursları, kosmos, astronavatika, avtomobil sənayesi və texnologiyası, elektrik texnologiyası, yer elmləri, mədəniyyət sahəsində xidmətlər, turizm və xidmət texnologiyası, ümumi elmlər, mexanika, logistika, nəqliyyat, audiovizual, təsvir, video, tikinti, fizika, humanitar elmlər, idman texnologiyası.

Naxçıvan Dövlət Universitetində bu gün 454 nəfərlik professor-müəllim heyəti ilə kadr hazırlığı aparılan 63 bakalavriat, 76 magistratura, 60 doktorantura ixtisasları, demək olar ki, Beynəlxalq Elmi Parklar Assosiasiyasının müəyyənləşdirdiyi ixtisaslaşma sahələrini əhatə etməkdədir. 2020-2021-ci tədris ilindən etibarən tədrisi nəzərdə tutulan Elektrik və elektronika mühəndisliyi, Kompüter elmləri, Beynəlxalq ticarət və logistika, Hərbi tibb kimi dövrün tələbindən doğan ixtisasların gələcəkdə Texnoparkın fəaliyyət dairəsinin genişlənməsində xüsusi rolu olacağı danılmazdır. Eyni zamanda tədrisi ingilis dilində İqtisadiyyat ixtisasının hazırda fəaliyyət göstərməsi və gələcəkdə digər müvafiq ixtisaslar üzrə də xarici dildə tədrisin həyata keçirilməsi imkanları innovasiya sahəsində beynəlxalq əməkdaşlıq üçün əhəmiyyətli faktor kimi universitetin strateji hədəflərinə daxildir.

### Texnoparklar elm-təhsil-tədqiqatın inteqrasiyası kimi

Müasir dövrün iqtisadi rəqabəti insan kapitalıdır. Belə ki, iqtisadi inkişaf trendinin dinamik olduğu ölkələrə baxdıqda əsas kapital və gəlirgətirən sahələr elmtutumlu texnologiyalardır. Bu ölkələrdə məhz insan kapitalı inkişafın əsas faktoru kimi çıxış edir və bununla istehsalın 75 faizini və milli gəlirin artımını təmin edir. Dünya Bankının statistikasına baxıldığında yüksək texnologiya ixracat gəliri əldə edən ölkələr Çin, Almaniya, ABŞ, Cənubi Koreya, Sinqapur, Fransa, Yaponiya, Vyetnam, Niderland, Malayziya ilk onluqdadır.

XXI əsrdə Qərbin inkişaf etmiş ölkələri istehsalın intellektləşdirilməsi ilə bağlı texnoloji inqilabı başa çatdırmışlar. Təsadüfi deyil ki,

Ardı 2-ci səhifədə



həmin ölkələrdə məşğulluğun təhsil göstəricisinə baxıldığında ali təhsillilər üstünlük təşkil edir. Misal üçün ABŞ-da işləyənlərin 47.3, Fransada 40.1, Cənubi Koreyada 46.8, Yaponiyada 51.7 faizi ali təhsillidir.

### *Texnologiyalar Parkı elm-təhsil-innovasiya strategiyasının uğurlu tətbiqinə geniş imkanlar açacaq*

Bu gün muxtar respublikamızda təhsilin bütün sahələri özünün yeni inkişaf dövrünü yaşayır. Bu baxımdan ali təhsilin inkişafı istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində muxtar respublikamızın ali təhsil müəssisələri nəinki regionun, dünyanın qabaqcıl universitetləri səviyyəsində infrastruktura malikdir. Naxçıvan Muxtar Respublikasında elm və təhsil arasında əlaqələri daha da gücləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı 2015-ci il 14 mart tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri qarşısına müvafiq vəzifələr qoyulmuşdur. Bu vəzifələrin icrası məqsədilə Naxçıvan Dövlət Universitetinin elmi dərəcəsi olan əməkdaşları muxtar respublikanın ümumtəhsil məktəblərində nümunəvi dərsləri uğurla keçirlər. Sərəncamın mühüm əhəmiyyətini nəzərə alaraq professor-müəllim heyəti həmin dərsləri aparmaqla yanaşı, şagirdlərdə elmi yaradıcılıq vərdişlərinin formalaşmasına da yaxından dəstək olurlar. Bu məqsədlə Naxçıvan Müəllimlər İnstitutunun təşəbbüsü ilə “Gələcəyin alimləri” layihəsinə start verilmişdir. Həmin layihənin təşkilində əsas məqsəd muxtar respublikanın ümumtəhsil məktəblərində təhsil alan istedadlı uşaq və gənclərlə aparılan elmi-metodik işlərin tənzimlənməsinə köməklik göstərməkdən, şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşdırılması və onların gələcək peşə istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı tədbirlərin sistemli həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil tarixində yeni bir dövrün başlanğıcı qoyulub. Həmin sərəncamla, ümumilikdə, 109 ixtisas 36 təşkilata hamiliyə verilib. Sərəncamda “İdeyadan başlanğıca” devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən yeni layihələrin – startapların həyata keçirilməsi nəzərdə tutulub. Bu mühüm qərar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır. Sərəncamın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hazırlanan *startup.nakhchivan.az* internet portalının təqdimatı olub. “Startap Naxçıvan” hərəkatı muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılmasına, onların nailiyyətlərinin yeni sistemin tələblərinə uyğun qiymətləndirilməsinə, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələrin aşkarlanmasına, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək məqsədi daşıyır. İnnovativ təhsil mühiti müəllimlərə də öz üzərində işləməklə peşəkarlıqlarını artırmağa və sağlam rəqabət mühitinin formalaşmasına şərait yaradır.

Naxçıvan Dövlət Universitetində innovativ inkişafla əlaqədar olaraq gənclərin layihələrini, ideyalarını dəstəkləmək üçün İnnovasiya mərkəzi və İnnovasiya laboratoriyası yaradılmışdır. Bu mərkəz və laboratoriya ali təhsil müəssisəsində tələbələrin startapla bağlı biliklərinin formalaşması, biznes layihə və planlarının qurulması, bu layihələrin təqdimatı ilə bağlı maarifləndirici treninqlərin keçirilməsini təmin edir ki, bu da gələcək elmimizə gənc kadrların cəlbi baxımından mühüm əhəmiyyətə malikdir. Eyni zamanda startap hərəkatına qoşulmanı optimallaşdırmaq və operativ əlaqələrin qurulması məqsədilə universitetin internet saytında startap layihələrin qəbulu ilə bağlı “İdeya bankı” fəaliyyət göstərir. “İdeya bankı”na innovativ layihələri olan istənilən şəxs müraciət edə bilir. 2020-ci ildən startap layihələrin sayı daha da artmışdır. Hazırda 20-yə qədər startap layihəsi üzərində iş aparılır. Layihələrdən biri bu il Naxçıvan Muxtar Respublikası üzrə keçirilən startap müsabiqəsində yüksək qiymətləndirilərək qalib olmuş, İqtisadiyyat Nazirliyi tərəfindən I dərəcəli diplomla təltif edilmişdir.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında” 2019-cu il 7 sentyabr tarixli Sərəncam elmi-tədqiqat proqramlarının və layihələrin maliyyələşdirilməsi, alimlərin elmi fəaliyyətlərinin stimullaşdırılması, muxtar respublikada elmi-texniki potensialın qorunması və inkişaf etdirilməsi sahəsində yüksək əhəmiyyətə malikdir. Hər bir ali təhsil müəssisəsi üçün müəyyənləşdirilmiş 5 fəaliyyət istiqamətindən biri elmin müxtəlif sahələri və istiqamətləri üzrə elmi-tədqiqatların aparılmasıdır. Bu mühüm dövlət sənədi ali təhsil müəssisəsinin fəaliyyətinin əsas məqsədinə – cəmiyyət və əmək bazarının



tələbatı nəzərə alınmaqla, yüksəkixtisaslı mütəxəssislərin, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını təmin etməyə birbaşa xidmət edir.

*İnanırıq ki, Naxçıvan Dövlət Universitetində yaradılmış Texnologiyalar Parkının imkanları nəticəsində diyarımız və ölkəmiz üçün müxtəlif sahələr üzrə ixtisaslı kadrlar hazırlanaraq ölkə iqtisadiyyatına mühüm töhfələr verməklə elm-təhsil-innovasiya strategiyası uğurla tətbiq olunacaqdır.*

**Elbrus İSAYEV**
***Naxçıvan Dövlət Universitetinin rektoru***

## Ötən ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Dünən Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində 2020-ci ilin yekunları və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış dördüncü sessiyasında qarşıya qoyulan vəzifələrlə bağlı kollegiya iclası keçirilib. İclasda çıxış edən xidmətin rəisi Bəxtiyar İsmayılov bildirib ki, muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsi kimi əhalinin sağlamlığının və alıcılıq qabiliyyətinin qorunub saxlanılmasına, keyfiyyətli yerli məhsulların istehsalının təşviqinə xidmət edən müxtəlif nəzarət tədbirlərini həyata keçirməklə bağlı xidmətin də qarşısına mühüm vəzifələr qoyulub. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən tədbirlər 2020-ci il ərzində də davam etdirilib və ümumilikdə, məhsul nümunələrinin 1862 halda, o cümlədən qida məhsullarının 1764 halda keyfiyyət və təhlükəsizlik göstəricilərinin yoxlanılması təmin olunub və bu istiqamətdə ciddi nöqsanlar aşkar edilməyib.

Diqqətə çatdırılıb ki, hesabat dövrü ərzində xidmət tərəfindən 237 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilib. Meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyətinin nəzarətdə saxlanılması məqsədilə 2020-ci il ərzində məhsulların 525 halda texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğunluğu yoxlanılıb, nöqsan aşkar edilməyib və müvafiq məhsulların 13 halda sertifikatlaşdırılması həyata keçirilib. Ötən il noyabr ayında təşkil olunmuş “Ailə təsərrüfatı məhsulları” yarmarkasında 447 ailə təsərrüfatının iştirak etməsi, 1601 çeşiddə məhsul çıxarılması bu sahədə əldə olunan uğurlardan xəbər verir.

Bildirilib ki, 2020-ci il ərzində alkoqollu içkilər istehsal edən 4 müəssisədə laboratoriya analizləri aparılaraq keyfiyyət və təhlükəsizlik göstəricilərinin texniki normativ-hüquqi aktların, standartların tələblərinə uyğunluğu müəyyən edilib. Xidmət tərəfindən hesabat ili ərzində 144 ət satışı mağazasına, 231 ictimai iaşə və xidmət sahəsinə, 47 topdansatış obyektinə, 653 ərzaq və qeyri-ərzaq mağazasına, 36 təhsil müəssisəsinin bufet və ya yeməkxanasına 314 bərbərxana və 210 gözəllik salonuna maarifləndirmə xarakterli baxış keçirilib, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilib.

Qeyd olunub ki, xarici bazarlara çıxış imkanlarının artırılması məqsədilə istehlak bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsi, ailə təsərrüfatları məhsullarının ixracına dəstək göstərilməsi üzrə verilmiş tapşırıqların icrası istiqamətində təsərrüfat subyektlərində bir sıra işlər görülüb, Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən “Naxçıvan məhsulları” mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilib.

Diqqətə çatdırılıb ki, hesabat ili ərzində, ümumilikdə, 8101 elektrik və qaz cihazına baxış keçirilib və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan 167 cihazın idxalına və satışına icazə verilməyib. 2020-ci il ərzində, ümumilikdə, texniki normativ-hüquqi aktların, standartların və texniki şərtlərin tələblərinə uyğun olmayan 5057,3 manat dəyərində keyfiyyətsiz və ya kontrafakt məhsullar satışdan çıxarılıb.

Sonra çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzində keçirilən tədbiri giriş sözü ilə mərkəzin sədri İsmayıl Qəribli açaraq bildirib ki, 2020-ci il ərzində mərkəz tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından irəli gələn vəzifələrin və mərkəzə aid cari tapşırıqların icra olunması diqqətdə saxlanılıb. Dövlət qulluğuna dair qanunvericiliyin dövlət orqanlarında tətbiqinə nəzarət edilib, 7 dövlət orqanının qanunvericiliyə uyğun olmayan 11 qərarı ləğv etdirilib, digər 7 dövlət orqanının 11 qərarı isə dəyişdirilib.

Vurğulanıb ki, Dövlət İmtahan Mərkəzi tərəfindən hesabat dövründə dövlət qulluğuna və digər orqanlara qəbul imtahanlarının dövriliyinin təmin edilməsi, kadr hazırlığı üzrə kursların təşkili, test bankının yenilənməsi və zənginləşdirilməsinin təmin edilməsi vəzifələrinin icrası diqqətdə saxlanılıb. 2020-ci il ərzində dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün keçirilmiş 3 müsabiqədə 1159 namizəd iştirak edib, 600 namizəd test imtahanlarında uğur qazanıb və 72 nəfər müvafiq vəzifələrə təyin olunub.

İsmayıl Qəribli bildirib ki, Dövlət İmtahan Mərkəzinə verilmiş tapşırığa uyğun olaraq 2020-ci il ərzində hüquq-mühafizə orqanlarının əməkdaşlarının və dövlət musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiyası keçirilib, test imtahanlarında 851 namizəd iştirak edib, 383 namizəd test imtahanlarında uğur qazanıb.

Ümumilikdə, 2020-ci il ərzində Dövlət İmtahan Mərkəzi tərəfindən 20 test imtahanı keçirilib. Bu da qurumun fəaliyyəti dövründə ən yüksək göstəricidir. İmtahanlarda 3905 iştirakçıdan , 1871-i keçid balını toplayıb. Hesabat dövründə keçirilən həmin imtahanlarda uğur qazanan 381 nəfər müvafiq vəzifələrə təyin olunub. Eyni zamanda ehtiyat kadrlar siyahısından 6 namizəd işlə təmin olunub.

Qeyd olunub ki, “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Dövlət İmtahan Mərkəzi tərəfindən “Səyyar dövlət qulluğu xidməti könüllülüyü” layihəsi həyata keçirilib. Mərkəzin əməkdaşlarından və könüllülərdən ibarət xidmət qrupu rayonlara gedərək müsabiqələrdə iştirak etmək istəyən 77 vətəndaşa operativ köməklik göstərib. Mərkəzin hamiliyinə verilən tələbələrin iştirakı ilə müxtəlif mövzularda 10 seminar keçirilib.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

## Yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası inşa olunur



Muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə xüsusi diqqət yetirilir, gələcək perspektivlər də nəzərə alınaraq yeni günəş və su elektrik stansiyaları inşa olunur. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, blokada şəraitində olan muxtar respublikada elektrik enerjisinə olan tələbat yerli istehsal hesabına ödənilməklə yanaşı, həm də ixrac imkanları yaranıb. “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada bu sahədə aparılan işlər hazırda uğurla davam etdirilir. Muxtar respublikada ilk dəfə olaraq Culfa rayonunda yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası tikilir. Burada 3400 ədəd 280 vatt gücündə günəş panellərindən və 5 ədəd 10 kilovat gücündə külək generatorundan, 50 kilovat gücündə 20 günəş və 10 kilovat gücündə olan 5 külək invertorlarından istifadə ediləcək.

Qeyd edək ki, hazırda quraşdırılma işləri davam etdirilir, stansiya hələlik ümumi olaraq 1 meqavat gücündə layihələndirilib və gələcək perspektiv plana uyğun olaraq gücün artırılması nəzərdə tutulub. Stansiyada 1 ədəd 1250 kilovat gücündə transformator yarımstansiyası quraşdırılıb, 3 hektardan çox ərazidə inşa olunan stansiyanın tikinti-quraşdırma işləri yüksək keyfiyyətlə aparılır. Ərazidə günəş panellərinin yerləşdirilməsi üçün dəmir strukturlar da yerləşdirilib, külək turbinlərinin bünövrəsi qoyulub. Həmçinin burada yarımstansiya və idarəetmə binası da tikilib, artıq stansiyada son tamamlanma işləri aparılır. Yaxın vaxtlarda istifadəyə veriləcək yeni Culfa Külək-Günəş Hibrid Elektrik Stansiyası muxtar respublikamızın enerji təhlükəsizliyinə öz töhfəsini verəcək.

**Alim AĞAYEV**

## Ailə, qadın və uşaq hüquqları qorunur

Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması dekabr ayında da diqqətdə saxlanılmış, bir sıra tədbirlər keçirilmişdir. Ötən ay aztəminatlı ailələrin üzvü olan 200 nəfər qadınla əlaqə saxlanılaraq söhbət aparılmış, müvafiq peşə kurslarına cəlb olunması üçün 7 qadın haqqında məlumat Naxçıvan Muxtar Respublikasının Təhsil və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinə göndərilmişdir.

Azərbaycan Mikromaliyyə Assosiasiyası və Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası tərəfindən Avropa İttifaqının maliyyələşdirdiyi "Azərbaycan regionlarında dayanıqlı mikrosahibkarlığın inkişafının sürətləndirilməsi" layihəsi çərçivəsində Virtual Sahibkarlar Yarmarkası keçirilmişdir. Yarmarkaya muxtar respublikanın istedadlı və ailə təsərrüfatçısı olan qadınların 159-u konservləşdirilmiş, 6-sı süd məhsulları, 17-si meyvə qurusu, 47-si dərman bitkisi, 23-ü şirniyyat, 216-sı toxuma, 206-sı dekorativ, 8-i yağlı boya və dekorativ tablo və 160-ı tikmə olmaqla, əl işi və ailə təsərrüfatı məhsulları çıxarılmışdır. Hazırlanan işlərin onlayn sərgilənməsi üçün çəkilmiş fotolar Azərbaycan Mikromaliyyə Assosiasiyasına təqdim edilmiş və Virtual Sahibkarlar Yarmarkasının *www.e-sergi.az* səhifəsində yerləşdirilmişdir. Yarmarkada 9 qadının 132 manat dəyərində 37 ailə təsərrüfatı məhsulu satılmışdır. Məhsulların satışının həyata keçirilməsi davam etdirilir. Həmçinin ay ərzində sərmayə kapitalı alan 7 qadının evində onun düzgün istifadə olunması ilə əlaqədar monitorinq keçirilmişdir.

Ötən ay "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsinin və "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda V muxtar respublika yaradıcılıq müsabiqəsinin qaliblərinin mükafatlandırılması tədbiri keçirilmişdir. "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda müsabiqəyə 121 iş, "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda yaradıcılıq müsabiqəsinə isə 64 film və foto təqdim edilmişdir. Müsabiqə qaliblərinə müvafiq olaraq pul mükafatı, hədiyyə və diplomlar təqdim olunmuşdur. Hesabat ayında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər davam etdirilmiş, 7-si məktəbəqədər yaşlı olmaqla, 50 sağlamlıq imkanları məhdud olan uşaqların valideynləri ilə əlaqə yaradılmış və onlarla maarifləndirici söhbət aparılmış, 6 sağlamlıq imkanları məhdud uşaq məktəbdənkənar və müalicə-reabilitasiya müəssisələrinə cəlb olunmuşdur. 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbində tədbir keçirilmiş, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum, tək valideynli və aztəminatlı ailələrdən olan 42 nəfər uşağa hədiyyə və şirniyyatlar təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın ekspert qrupu tərəfindən 8 uşaq müəssisəsində monitorinqlər keçirilmiş, monitorinq zamanı aşkarlanan nöqsanlar aktlaşdırılmış, tədbir görülməsi üçün aid orqanlara məktub göndərilmişdir.

Dekabr ayı ərzində elektron məlumat bankına 679 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Rəyasət Heyətinin cari ildə ilk iclası keçirilib



***İclası giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib. Bölmənin 2021-ci il üçün iş planı oxunaraq müzakirələrdən sonra təsdiq edilib.***

Bölmənin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Rəşad Zülfüqarov bölmənin Elmi-tədqiqat institutlarının iş planları haqqında məlumat verib. Müzakirəyə çıxarılmış iş planlarının bəzi əlavə və dəyişikliklərlə qəbul edilməsi məqsədəuyğun hesab olunub.

İclasda Elm və təhsil şöbəsinin baş mütəxəssisi, filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərova doktorant və dissertantların attestasiyadan keçirilməsi, fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya sənəd qəbulunun yekunları haqqında məlumat verib. İclasda, həmçinin bölmənin təhsil müddətini bitirən doktorant və dissertantların doktorant və dissertantlıqdan azad olunmaları ilə bağlı məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Sonda bölmənin bəzi əməkdaşlarının vəzifə və dərəcələrinin artırılması və digər cari məsələlər müzakirə edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Yeni kitabın təqdimatı olub

*"Naxçıvan" Universitetində iqtisadçı alimlər Cavadxan Qasımovun, Sədaqət Əhmədovanın, Flora Ələsgərovanın və Sevinc Zamanovanın həmmüəllifi olduqları "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi perspektivləri: reallıqlar və nəticələr" adlı dərs vəsaitinin təqdimatı keçirilib.*



Tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva açaraq diqqətə çatdırıb ki, hazırda muxtar respublikamızda olan ali təhsil ocaqlarında iqtisadiyyat və iqtisadiyyatyönümlü ixtisasların tədrisində yeni metodik vasitələrdən istifadə olunur və bununla bağlı müvafiq işlər görülür. Yeni nəşr olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi perspektivləri: reallıqlar və nəticələr" adlı dərs vəsaiti də bu yöndə görülən işlərin davamıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, "Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Hüseyn Bağırsoylunun, İdarəetmə kafedrasının müdiri, dosent İradə Bağırovanın və həmin kafedranın professoru, iqtisad üzrə elmlər doktoru Mehdi Bağırovun, İqtisadiyyat kafedrasının dosenti Ceyhun Mahmudovun çıxışları dinlənilib.

Bildirilib ki, 5 fəsildən ibarət olan dərs vəsaitində təhlillər statistik məlumatlar əsasında peşəkarlıqla aparılıb, muxtar respublikanın istehsal, məşğulluq və sosiallaşma sahəsindəki uğurları yüksək elmi əsaslandırma ilə ortaya qoyulub. Dərs vəsaitində muxtar respublikada iqtisadiyyatın sənayeləşməsi, sosiallaşması və bunların fonunda çoxşaxəliliyin diversifikasiya edilməsi məsələlərinin yüksək qətiyyətlə reallaşması sahəsindəki dövlət tədbirlərini görmək olur.

Sonda müəlliflər çıxış edərək göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

**Seyfur HACIMURADOV**

## Eksternat qaydada imtahan



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən eksternat qaydada aralıq imtahanı keçirilib. İmtahanda müxtəlif səbəblərdən ümumi orta və tam orta təhsil səviyyəsini başa vura bilməyən və həmin səviyyə üzrə buraxılış imtahanı verərək attestat almaq istəyən namizədlər iştirak ediblər.

Məlumat üçün bildirək ki, sərbəst (eksternat) təhsilalma forması əsasında müstəqil hazırlaşıb ümumi orta və ya tam orta təhsil üzrə buraxılış imtahanlarında iştirak etmək istəyən şəxslərin 23 noyabr 2020-ci il tarixdən 30 dekabr 2020-ci il tarixədək Təhsil Nazirliyində sənəd qəbulu aparılıb. Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbdə keçirilən imtahanlarda ümumi orta təhsil bazasından 187, tam orta təhsil bazası üzrə isə 339 olmaqla, ümumilikdə, 526 nəfər iştirak edib. Ümumi və tam orta təhsil səviyyəsi üzrə attestat almaq üçün müraciət edənlər hər birindən 10 sual olmaqla, 6 fənn üzrə imtahan veriblər.

Keçirilən imtahanlarda uğur qazanmış şəxslər Dövlət İmtahan Mərkəzi tərəfindən tam və ümumi orta təhsil səviyyələri üzrə keçiriləcək buraxılış imtahanlarında iştirak edəcək, həmin imtahanlardan müsbət qiymət alanlara ümumi orta və ya tam orta təhsil haqqında attestat veriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Qış fəslində yurdumuzun dərman bitkilərindən hazırlanan çaylar əvəzsizdir

***Hamımız qışın soyuq günlərində isti çay içməyə üstünlük veririk. Lakin gündəlik olaraq qara çayla yanaşı, müxtəlif dərman bitkilərindən hazırlanan çaylardan da istifadə edirik. Bol günəş, təmiz hava və saf bulaqlarımızın suyu ilə qidalanan, dağlarımızda, dərələrimizdə bitən dərman bitkilərini vaxtında toplayır, qış üçün tədarük edirik. Çünki havalar soyumağa başlayanda, xüsusilə də qış aylarında həmin bitkilərin dəmləməsi xəstəliklərdən qorunmaq üçün əvəzedilməz vasitədir. Qış xəstəliklərin ən çox görüldüyü və immun sisteminin aşağı düşdüyü mövsüm olduğu üçün səhhətimizə daha çox fikir verməliyik. İndi bəhs edəcəyimiz dərman bitkilərindən hazırlanan çay xəstəliklərə səbəb olan bakteriya və viruslara qarşı dözümlülüyün artırılmasında, qış mövsümünü sağlam şəkildə başa vurmaqda sizə köməkliyini göstərəcək.***

***Kəklikotu çayı.*** Təbiətin ən gözəl, ən faydalı bitkilərindən biri kəklikotudur. Qışda dəmləməsi ən çox istifadə edilən dərman bitkisidir. Onun qurudulmuşundan həm də yeməklərin tərkibində istifadə edirik. Kəklikotunun xoş ətri yeməklərə, eləcə də çaya xüsusi ləzzət qatır. Kəklikotu çayı insanın əhvalını yaxşılaşdırmaq, yorğunluğunu aradan qaldırmaqla yanaşı, soyuqdəymənin qarşısını almaqda da ən təsirli vasitələrdən biridir. Onun müxtəlif növlərini, xüsusilə də adi, limonlu və qızılgüllü kəklikotunu muxtar respublikamızın müxtəlif bölgələrinin dağlarından toplaya bilir və qış boyunca istifadə edirik.

***Nanə çayı.*** Qoxusu ilə məst edən nanə çayı orqanizmə olduqca faydalıdır. Nanə və limon bitki çayı həvəskarlarının sevimlisidir. Soyuq qış günlərində zövqlə istifadə edilən bu çay immuniteti gücləndirməklə yanaşı, qripə və mədə ağrılarına qarşı da faydalıdır.

Min bir dərdin dərmanı olan bitkilərdən biri də həmərsindir. Diyarımızın çəmənlərində, meşələrində, eyni zamanda daşlı-çınqıllı ərazilərdə yetişən, al-qırmızı meyvələri ilə payıza xüsusi rəng qatan həmərsini "təbii vitamin – mineral kompleksi"






adlandırırlar. C vitamini və müxtəlif minerallarla zəngin həmərsinin qurudulmuş meyvələrinin çayı qrip, soyuqdəymə kimi xəstəliklərə qarşı qalxan rolunu oynayır.

***Yarpız çayı.*** Bu bitki, xüsusən çay kənarlarından toplanıb qurudulur. Yarpızın dəmləməsi, xüsusilə qış fəslində həzmi asanlaşdırır, iştahaaçıcıdır. Öd kisəsi, qaraciyər və mədə-bağırsaq xərçəngi xəstəliklərinə də faydalıdır.

***Yemişan çayı.*** Bu bitkidən hələ qədim vaxtlardan ürək və ciyər xəstəliklərinin müalicəsi üçün istifadə olunurdu. Payızda yetişən al-qırmızı giləmeyvələri olan bu bitkinin çayı maddələr mübadiləsini bərpa edir, orqanizmin müqavimətini, beyin qan dövranını, ürəyin qlükoza və oksigenlə təchizatını artırır. Yemişanın orqanizm üçün heç bir mənfi təsirinin olmadığı deyilir.

***Çobanyastığı çayı.*** Sarı-ağ rəngdə çiçəkləri ilə diqqəti cəlb edən, uşaqdan-böyüyə hamının sevərək topladığı bitkidir çobanyastığı. Həyətyanı sahələrdə, çay kənarlarında, düzənliklərdə bitən, xoş ətri ilə insanı valeh edən bu bitki ağrıkəsici xüsusiyyətə malikdir. Çobanyastığı çayı yuxusuzluqdan əziyyət çəkənlər üçün böyük fayda verir, dişdə yaranan iltihablanmanı aradan qaldırır. Çobanyastığı çayı qarqara şəklində istifadə edildikdə müalicəvi maye vəzifəsini yerinə yetirir.

***Qarğıdalı saçağının çayı.*** O, zəngin tərkibi, faydalı xüsusiyyətləri ilə bir çox dərdlərin təbii dərmanıdır. Xalq təbabətində qarğıdalı saçağından çox qədim zamanlardan istifadə olunub. Saçaqların dəmləməsi bir sıra xəstəliklərin müalicəsində – böyrək iltihabi, piylənmə, vərəm, şəkərli diabet, dəri və onkoloji xəstəliklərin profilaktikasında əhəmiyyətli vasitədir.

Bu gün dünya alimlərinin də diqqətini cəlb edən bitkilərdən biri olan ***boymadərən*** muxtar respublikamızın dağlıq ərazilərində geniş yayılıb. Onu, əsasən, bağ, bostan sahələrindən, çay kənarlarından toplayırıq. Xoş ətri ilə insanları cəlb edən bu bitkinin daha çox ağ boymadərən növündən istifadə olunur. Onun çiçəklərindən dəmlənən çay qankəsici vasitə kimi, ürəyin fəaliyyətini, ümumi emosional vəziyyəti yaxşılaşdırmaqda, soyuqdəyməyə qarşı təbii müalicə vasitəsidir.

***Şahtərə çayı.*** Şahtərə muxtar respublikamızda geniş yayılıb. Bu birillik bitkiyə divar diblərində, daşlıq ərazilərdə belə, rast gəlmək olur. Dərman şahtərəsinin dəmləməsi hipertoniya, ekzema, soyuqdəymə, ağciyər və öd yolları, diş əti xəstəliklərinin müalicəsində tətbiq edilir. Xalq təbabətində şahtərənin otundan sulu və spirtli ekstrakt hazırlayıb "şahtərə arağı" adı ilə həm xarici, həm də daxili xəstəliklərdə, ürək ağrılarında sakitləşdirici dərman kimi işlədilir. Vərəm xəstəliyində də şahtərə otunun sulu dəmləməsindən istifadə olunur.

***Püt və ya pülkü çayı.*** Bu bitkidən, bəlkə də, bir çoxunuz xəbərsizsiniz. Diyarımızın bir sıra bölgələrində, xüsusilə Ordubadın dağlıq ərazilərində çox geniş yayılan bu bitki bir sıra xəstəliklərin dərmanıdır. Gözəl görünüşü və ətri ilə insanı cəlb edən bitkinin qurudulmuşundan hazırlanan çay bir sıra xəstəliklərin müalicəsinə kömək edir. Xalq təbabətində dəmləmə və cövhəri büzücü, antiseptik vasitə kimi stomatitlərdə, anginada, diş əti qanaxmalarında, ginekoloji və böyrək, tənəffüs yollarının iltihabi xəstəliklərində, soyuqdəymədə faydalıdır.

Bu gün muxtar respublikamızda fəaliyyət göstərən ailə təsərrüfatları tərəfindən dərman bitkilərindən müxtəlif məhsullar hazırlanır, həmçinin diyarımızın flora və faunasının, genofondunun qorunması üçün əsaslı elmi-tədqiqat işləri aparılır. Bu gün Naxçıvanda dərman bitkilərinin istehsalı və ixracı ilə məşğul olan sahibkarlıq subyektləri mövcuddur. Belə sahibkarlıq subyektlərindən biri Şahbuz rayonunda yerləşən "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Burada istehsal edilən müalicəvi məhsulları muxtar respublikada fəaliyyət göstərən ticarət mərkəzlərində, əczaxanalarda, hətta Naxçıvandan kənarda belə, əldə edə bilərsiniz. Həmçinin Naxçıvan şəhərində steril şəraitdə qurudulan dərman bitkilərindən 16 adda xəstəliyin müalicəsində istifadə edilməsi üçün xüsusi təcrübələrlə yoxlanılmış reseptlər əsasında dərman bitkisi qarışıqları hazırlanır. Həmin qarışıqlar "Yaşıl aptek"də və müxtəlif əczaxanalarda satışa çıxarılır. Gəlin yerli təbii müalicəvi bitkilərdən istifadə etməklə həm özümüzün, həm də yaxınlarımızın sağlamlığını qoruyaq, xəstəliklərdən uzaq olaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

*200 ilə yaxın bir müddətdə təkcə Cənubi Qafqaz regionunda deyil, elə səpələndikləri beş (bəlkə də, altı) qitədə insanların başını ağrıdan, terror, təxribat və fitnə yolu ilə normal həyatı məhv edən erməni xəstəliyi davam etdikcə onun daşıyıcıları olan ermənilərin və hay heyranlarının qızdırması da vaxtaşırı olaraq qalxır. Müasir tibb elminə gerçək "erməni xəstəliyi" adı ilə qızdırma əlamətli genetik bir xəstəlik kimi məlum olan, tibbi statistikada isə, əsasən, erməni millətindən olan insanların daha çox yoluxduğu bildirilən və Şimali Afrika-Aralıq dənizi mənşəli bu mərizin müayinəsi və müalicəsi barədə dəqiq elmi fikirlər məlum olsa da, yaltaqlıq, lovğalıq, hiylə və qorxaqlıq kimi simptomları ilə hər yerdə rastımıza çıxan daha təhlükəli erməni xəstəliyi bu gün hamı ilə birgə bizim də başımızı ağrıtmaqdadır.*

nəzarətin hələ də onlarda olması kimi gülməli bəyanatlarını xatırlayanlar vardır. Deməli, ermənilər yeri gəlsə, hətta öz binəva xalqını da aldatmaqdan çəkinmir, o ki qaldı dünyanı çaşbaş salmağa.

Amma çoxbilmiş tülkü quyruğundan tələyə düşər, – deyiblər. Ermənilər tarixboyu çirkin əməllərini saxtakarlıqla ört-basdır etsələr də, müasir dünya artıq internet, fotovideofakt dünyasıdır. Bir anda dünya

## Erməni xəstəliyi: simptomları, müalicəsi

*(felyeton)*

Erməni xəstəliyi unikal bir xəstəlikdir. Uzaq və yaxın tarixdə baş verən hadisələrə, eləcə də Azərbaycanın 44 günlük uğurlu Vətən müharibəsindən sonrakı cəmisi ikiaylıq bir müddətin xronologiyasına baxdıqda görürük ki, ermənilər, nəinki onların qanına işləmiş xəstəlikdən, nəhayət ki, qurtulmağa, insan kimi yaşayıb adam olmağa çalışır, tam tərsinə, bir-birini dişləyən zombilər kimi öz aralarında daha çox virus yayıb xəstələnməyə çalışırlar.

Əslində, statistik olaraq ermənilərin bir-birini yoluxdurmasının pandemik bir fəlakət doğuracağı təhlükəsi yoxdur. Yəni, bəlkə də, 70 faizdən çoxunun indi Ermənistan adlanan Qərbi Azərbaycan torpaqlarından kənarda yaşadığı bu etnik qrupun 6-7 milyonunun hamısı virusa bulaşsa, nə baş verər ki?! Başqa sözlə, indiki pandemiya şəraitinin təcrübəsi onu deməyə əsas verir ki, əgər bu qədər insanın hamısı gizli daşıyıcı olarsa, tək bircə sərt karantin rejimi ilə onları məhdudlaşdırmaq mümkündür. Ancaq tarixin ötən dövrlərinə, elə lap 100 il əvvəldən bu günədək olan dövrə baxdıqda görürük ki, ermənilərin bu tarixi xəstəliyini məhdudlaşdırmaq üçün nə tibb, nə digər təbiət elmləri, nə də sosial elmlərin gəldiyi nəticə bir fayda verir. Yeri gəldi-gəlmədi, lovğalanıb özlərini Yer üzünün ilk və əbədi sakinləri tipində göstərən ermənilərə gerçək kimliyini xatırladanda dərhal daban yalayıb ən miskin cildə düşmələrinə, yaxud pusquya yatmış zınqırovlu ilan kimi on illərlə səbirlə gözləyib qəfildən şikarını zəhərləyən, sonra da başı əziləndə, sanki heç bir şey olmamış kimi quyruğunu sağa-sola çırpıb ara qarışdırmalarına qarşı, görəsən, hansı vaksin, hansı dərman fayda verər? Deyəsən, çətin məsələdir. Çünki bu gün 10 noyabr 2020-ci il tarixli təslimolma sənədinə imza atıb, 30 il ərzində viran qoyduqları Qarabağdan rüsvaylıqla qovulan ermənilərin siyasi liderlərindən tutmuş xaricdəki əli pulla oynayan "yan"larınadək, demək olar ki, hamısı hələ də qızdırma içində, – bu məğlubiyyət hər şeyin sonu deyil,– deyə bir ağızdan sayıqlamaqdadırlar.

Görünür, xain qonşularımız yeni yüzilliyə yeni savaş standartları gətirmiş qalib Azərbaycan Ordusundan aldıqları layiqli dərsdən hələ də düzgün nəticə çıxarmayıblar. Ola bilər, ağır kəllə-beyin travması almış insanın nə gəldi söyləməsi mümkündür. Amma huşu özünə gələr-gəlməz yenidən böyük torpaqlar udmaq iştahası ilə ağzını açan ermənilər, görəsən, nədən belə xəstədirlər? Bunun səbəbləri nədir? Gəlin baxaq.

Ermənilər acgözdürlər. Bu, bəlkə də, onların tarixən kasıb yaşamaları, yaxud həmişə xidmətçi kimi ələbaxım olmalarına bağlıdır. Amma bu da vardır ki, bu insanlar yaxşı bir fürsətçi kimi yaşadıqları yad ölkələrdə "düzüb-qoşmaq" ustası kimi yerli insanlardan da yaxşı yaşamağı bacarırlar. Əsl erməni xislətinin də dilənçilik olduğunu deməmək insafsızlıq olar. Ədalət naminə onu da demək lazımdır ki, "quyuya su tökməklə quyuda su olmaz" zərb-məsəli də ermənilər üçün çox tutarlıdır. Yəni Ermənistanda insanların yaşada biləcək zəngin təbii ehtiyatlar olmasa da, müasir dünya təcrübəsi göstərir ki, elmtutumlu istehsal ilə bunlarsız da yaxşı yaşamaq mümkündür. Amma gəlin görək sübh erkəndən, günbatana qədər Ağrı dağına qovuşmaq xəyalları ilə yaşayıb, Göyçə gölünü Xəzərdən də böyük hesab edən ermənilərdə haradandı bu təpər? Ac toyuq yuxusunda darı görər, – misalı ilə desək, Rusiyaya konservləşdirilmiş badımcan kababı ixracı ilə müasir Ermənistanda hansı işləri görmək, hansı irimiqyaslı layihələri reallaşdırmaq olar? Ona görə də ötən dövrdə konyak diplomatiyası və bundan daha alçaq yollarla ələ aldıqları üçüncü, dördüncü dərəcəli xarici havadarları sayəsində gördükləri işlərin mahiyyəti sonucda bir çaxır xumundan böyük olmadı. Nəticə də göz qabağındadır. Bu dövrdə erməni gənclər çörəkpulu üçün kütləvi olaraq xaricə axışdı, kəndlər boşaldı, iqtisadiyyat çökdü, qızları evdə qalıb qarıdılar.

Hiyləgər ermənilər fitnə-fəsad çıxarmağın əsl ustasıdırlar. Olanları gizlətmək, olmayanı qıpqırmızı adamların üzünə demək bacarığı, sanki bu insanların boyuna biçilib. Heç qara ləkələrlə dolu tarixlərini demirəm. Elə götürək ağ bayraq qaldırıb imdad dilədikləri 10 noyabrdan sonrakı dövrdə Ermənistan mətbuatındakı yazıları. Bir tərəfdən dövlət başçılarını satqın adlandıran erməni başbilənləri, digər tərəfdən elə cümlələr yazırlar ki, sanki Qarabağda qələbə qazanan elə bunlarmış. Yəqin ki, xalqımız Şuşa zəfərini yaşadığı gün ermənilərin Qubadlıda olub-bitənləri görür, şərhə ehtiyac duymadan hər bir həqiqətin şahidi olur. Belə həqiqətlər isə yüzlərlə, minlərlədir. Odur ki, indi erməni xəstəliyinə tutulmuş hər bir erməninin bir qorxusu var: içlərindəki qisas dolu faşizm hisslərinin birbaşa qurbanına çevrilmək! Çünki ermənilər qorxaq olduqları kimi də qəddardırlar. Yəni illər ərzində gizli saxladıqları kirli əməllərinə görə cavab verəcəyi günün qorxusundan onlar hər kəsə, hətta öz millətinə də qarşı amansız olurlar. Bu da erməni xəstəliyinin bir simptomudur.

Ermənilər lovğadırlar. Saray təlxəkləri kimi gop edib camaatı əyləndirən ermənilər elə modern yalanlar uydursunlar ki, gəl görəsən. Bu da erməni xəstəliyinin bir əlamətidir və məncə, onu müalicə etmək daha çətindir. Misal üçün, planetdə qitə adlarının A ilə başlayıb A ilə qurtardığını əsas gətirib, bütün Yer kürəsindəki quru ərazilərin onlara məxsus olduğunu iddia edən erməni, yəqin ki, Ermənistanın da baş yalançısıdır. Yaxud üzümün, əriyin, gilasın vətəninin Ermənistan olduğunu, lavaşın, dolmanın onların mətbəxinə məxsus olduğunu deyən ermənidən daha nə gözləyəsən? Hamı deyəcək ki, xəstədir, boş ver! Bəli, elə bu xəstə ermənilər idi ki, bir zaman Şuşada, Cıdır düzündə qol götürdülər, amma yallı gedə bilmədilər. Çünki yad torpaqda, onlara məxsus olmayan musiqinin ritmini tuta bilmədilər və hamılıqla büdrəyib, çox pis yıxıldılar. Həm də axı yallı həmrəylik simvolu kimi türk xalqlarına məxsus rəqsdir. Həmrəyliyin nə olduğunu isə təkcə ermənilər deyil, bütün dünya 44 günlük şanlı Vətən müharibəsi dövründə Azərbaycandan yaxşıca öyrəndi…

Nə isə, deyəsən, bütün bunlardan sonra onsuz da xəstə ermənilərin dərdi daha da artıb. Amma onu deyim ki, dərmanların da tapıblar. Dəmir yumruq! Bu dəmir yumruq erməni xəstəliyinin ən tutarlı dərmanı kimi başlarında partlayıb bir az ağıl gətirdi. Bir müddət səsləri çıxmadı. Amma, deyəsən, hələ də tam sağalmayıblar. Elə isə müzəffər Ordumuzun Ali Baş Komandanının dediyi kimi: ***"Əgər bir də baş qaldırsalar bu dəfə 44 günlük müharibə yalan olacaq!"*** Çünki bütün dünya indi erməniləri, onların düçar olduqları xəstəliyi və simptomlarını da əvvəlkindən daha yaxşı tanıyır.

**Əli CABBAROV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *Vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi hansı qaydada həyata keçirilir?*

***Cavab:*** Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"na əsasən şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi ilə əlaqədar icraat həmin şəxsin Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlərə malik olmadığı və ya belə sənədləri qanunsuz əldə etmələrinə əsaslı şübhələr olduğu təqdirdə aparılır. Bu icraat Dövlət Miqrasiya Xidməti tərəfindən şəxsin özünün və ya mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının, prokurorluq və məhkəmə orqanlarının sorğusu əsasında başlanılır.

Ölkə vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər miqrasiya qanunvericiliyi ilə bağlı olan istənilən sualı Dövlət Miqrasiya Xidmətinin 202 Miqrasiya Məlumat Mərkəzinə və *miqrasiya.nakhchivan.az* saytının əlaqə bölməsinə ünvanlayaraq ətraflı məlumat əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Vətən müharibəsi qazilərinə xüsusi səhiyyə xidməti göstərilib



***Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərimizin müalicəsi, onlara yüksək səviyyədə səhiyyə xidmətinin göstərilməsi üçün "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsi Şərur rayonunda humanitar tibbi aksiya keçirib.***

Baş həkim Zəbur Bağırovun rəhbərliyi ilə 19 nəfərdən ibarət briqada Şəhriyar, Danyeri, Qarahəsənli, Püsyan, Maxta, Oğlanqala, Gümüşlü, Təzəkənd, Alışar, Cəlilkənd, Xələc və Çərçiboğan kəndlərində yaşayan 18 Vətən müharibəsi qazisinə evlərində tibbi xidmət göstərib. Qazilər müxtəlif müayinələrdən keçirilib, tibbi yardım göstərilib, dərman və tibbi maska, müvafiq təyinat və məsləhətlər verilib, 3 qazi rentgenoloji və fizioterapevtik müayinə və müalicə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.

Vətən müharibəsi qaziləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb. Komissiyanın təşkilatçılığı ilə aksiya muxtar respublikanın digər rayonlarında da keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Universitet müəllimi ixtirasına görə patent alıb



*Naxçıvan Dövlət Universiteti Kimya kafedrasının müəllimi Pərvin Quliyev "Sb2Se3 nazik yarımkeçirici təbəqələrinin alınması üçün elektrolit" adlı ixtirasına görə patent alıb.*

Qeyd edək ki, patentin məqsədi "Elektrokimyəvi yolla Sb2Se3 nazik təbəqələrinin sintezi və bəzi xassələrinin tədqiqi" mövzusunda aparılan tədqiqatlar zamanı stexiometrik tərkibə malik həmin yarımkeçirici təbəqələrin alınması, alınan bu təbəqələrin potensial adsorbent olması və digər yüksək elmi nəticələr əldə edilməsidir. Tartratelektroliti məhlulunda aparılan reduksiyadan alınan təbəqələrin bir sıra əhəmiyyətli fiziki-kimyəvi parametrlərə malik olması kimi elmi nəticələrin müəlliflik şəhadətnaməsi ilə təsdiq edilməsi qarşıya məqsəd qoyulub. Bunun üçün AMEA Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu ilə sifarişçi kimi razılaşdırılmış və ixtiraya dair sənəd–müəlliflik şəhadətnaməsi sifariş verilib. 2017-ci il 11 aprel tarixdə verilən sifariş 2020-ci il 14 oktyabr tarixdə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən dövlət reyestrində qeyd olunub.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Naxçıvan şəhərində daha bir idman mağazası fəaliyyətə başlayıb



*Ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birini də idmanın inkişafı təşkil edir. Bu sahənin maddi-texniki bazası gündən-günə möhkəmləndirilir. Ölkənin idman mərkəzlərindən biri hesab olunan muxtar respublikamızda da bu məsələ diqqətdə saxlanılır.*

Yanvarın 11-də Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən Kitab Evi binasında yeni idman mağazasının istifadəyə verilməsi və bunun ifadəsidir. İdman ləvazimatlarının satıldığı mağazada bütün yaş qruplarına aid məhsullar var. Yeni ünvanda satılan markalar dünyaca məşhur idman geyimləri və idman avadanlığı markalarına aid məhsullardır. Həmçinin burada müxtəlif aksesuarlar və çantalar da alıcılara təklif olunur. Hər fəsilə və dəbə uyğun mallar çeşid bolluğu, yüksək keyfiyyəti və sərfəli qiyməti ilə seçilir.

Mağazada müxtəlif idman növlərinə və müxtəlif firmalara xas olan 200 növdən çox idman ayaqqabıları var. İdman geyimləri üçün idman ayaqqabılarına üstünlük verənlər və müəyyən bir idman növü ilə maraqlananlar bu mağazada öz tələbatlarına uyğun məhsullar tapa bilərlər.

Bununla yanaşı, mağazada idman fəaliyyətləri zamanı lazım olan məhsullar da satılır. Belə ki, idmançıların tapa biləcəyi məhsullar arasında basketbol, tennis, üzgüçülük, stolüstü tennis, futbol, boks, fitnes və sair idman növlərinin avadanlıqları da var. Həmçinin fitneslə məşğul olanlar mağazadan müxtəlif vitaminlər də əldə edə bilərlər.

Alıcıların mağazaya gəlmədən istədikləri məhsulları satınalması da mümkündür. Belə ki, 600 növdən çox məhsulun satıldığı idman malları mağazasının sosial şəbəkələrdəki *idman_mallari_nmr* rəsmi səhifələrindən istənilən məhsulun sifarişini də vermək mümkündür.

Mağaza həftənin hər günü saat $10^{00}$-dan $19^{00}$-dək fəaliyyət göstərəcək.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 28